“Məhkumluğun olub-olmaması barədə arayışın verilməsi” elektron xidmətinin İstifadəçi təlimatı

“Məhkumluğun olub-olmaması barədə arayışın verilməsi” e-xidməti üzrə müraciət ərizəsinin təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.



“Giriş” bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza”, SİMA İmza, “SİMA Token” və yaxud “Şəxsiyyət vəsiqəsi” bölmələrindən biri seçilir.

İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.



İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə SİMA Token kompüterə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.

İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA İmza” bölməsi seçildikdə “SİMA” mobil tətbiqi açılaraq ekrandakı QR kod skan edilir və kabinetə daxil olunur.

İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Şəxsiyyət vəsiqəsi” bölməsi seçildikdə_ FİN və FİN-ə bağlı mobil nömrə qeyd edilərək “Daxil ol” düyməsi sıxılır.



Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.



Daha sonra “Məhkumluğun olub-olmaması barədə” arayışın verilməsi üçün müraciət ərizəsinin təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması seçilir və yaxud “Hamısına bax” düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq ərizə forması seçilir.



Açılan ekranda vergi orqanı, vergi ödəyicisi və rəhbər barədə məlumatlar avtomatik olaraq əks etdirilir.



Daha sonra “Mən “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən özümə aid xüsusi kateqoriyalı məlumatların (ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə məhkumluq, habelə ödənilməmiş və götürülməmiş məhkumluq) Daxili İşlər Nazirliyindən əldə olunmasına razılıq verirəm.” çekboksu üzrə seçim edilir və ərizənin göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi sıxılır.



“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.

“**İmzala və göndər”** düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.



Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



İstifadəçi tərəfindən göndərilən “Məhkumluğun olub-olmaması barədə” ərizə “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda “Göndərilənlər” qovluğundan da **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.